güclü zəmin yaratmaqdır." sözlə, 2005-2015-ci illər üçün böyük təminat verir." siya cəmiyyətinin inkişafına

# Jitomir şəhərində Azərbaycan Mədəniyyət mərkəzi açılıb



Ukraynanın Jitomir şəhərində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və yeni il münasibəti ilə silsilə tədbirlər keçirilib. Ukrayna Azərbaycanlılarının Həmrəyliyi Konqresinin təşəbbüsü ilə keçirilən tədbir Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı ilə yadda qalıb.

Azərbaycan və Ukraynanın dövlət himnlərinin sədaları altında başlayan tədbirdə Ukrayna Ali radasının deputatları, Azərbaycan səfirliyinin diplomatları, Jitomir Vilayət Dövlət Admnistrasiyasının nümayəndələri, diaspor və media təmsilçiləri iştirak edib. Tədbirə qatılanları qarşıdan gələn yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibəti ilə təbrik edən Jitomir Vilayətindəki Azərbaycan Həmrəyliyi Konqresinin sədri İlqar Məmmədov və Ukrayna Millətlər Assambleyasının rəhbəri, Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin sədri Rövşən Tağıyev təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Dünya Azərbaycanlılarının Həmrəylik Gününün tarixi əhəmiyyətindən danışıblar. 31 dekabr Həmrəylik Gününün dünyanın müxtəlif ölkələrində yaşayan 50 milyondan çox soydaşımızın birlik və milli məfkurə bayramına çevrildiyini qeyd ediblər.

Tədbirdə Ukrayna Ali radasının deputatları Sergey Melniçuk, Natalya Veselova, Borislav Rozenblat və digər rəsmi şəxslər çıxış edərək Azərbaycanla Ukrayna arasındakı tarixi dostluq əlaqələrindən söz açıblar. Qarşıdan gələn yeni il və həmrəylik günü münasibəti ilə Azərbaycan xalqına xoş və səmimi arzularını çatdırıblar. Jitomir şəhərində Azərbaycan Mədəniyyət Mərkəzinin açılmasını iki dost ölkə arasında mühüm hadisə adlandıran Sergey Melniçuk qeyd edib ki, mən çox şadam ki, bizə dost və qardaş olan Azərbaycan dövləti inkişaf edərək dünyada öz layiqli yerini tutub. Əminəm ki, bölgənin lider dövlətinə çevrilən Azərbaycan tezliklə öz ərazi bütövlüyünü bərpa edəcək. Fürsətdən istifadə edib Azərbaycan xalqını qarşıdan gələn yeni il və həmrəylik günü münasibəti ilə ürəkdən təbrik edirəm.

Azərbaycan və Ukrayna xalqının dostluq əlaqələrinin çox qədim kökə bağlı olduğunu bildirən deputat Natalya Veselova ölkələrimizin tarixin ən çətin dönəmlərində bir-birilərinə dəstək verdiyini vurğulayıb. Bu baxımdan Ukrayna Millətlər Assambleyasının rəhbəri Rövşən Tağıyevin və Jitomir vilayətindəki



Azərbaycan diasporunun rəhbəri İlqar Məmmədovun mütəmadi olaraq Ukraynadakı qaçqınlara və səhra hospitallarına verdikləri maddi və mənəvi dəstəyi yüksək qiymətləndirib.

Sonra tədbirə qatılan qonaqların iştirakı ilə Jitomir şəhərində yaradılmış Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı olub. Tədbir iştirakçıları Jitomir Azərbaycanlılarının Həmrəylik Konqresinin təşəbbüsü ilə açılan Azərbaycan Mədəniyyət Mərkəzində yaradılmış şəraitlə tanış olublar. Qeyd olunub ki, Azərbaycanın qədim və zəngin mədəniyyətini özündə qoruyub yaşadacaq bu mərkəz, ölkələrimiz arasındakı mövcud dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsində müstəsna rol oynayacaq.

Tədbir Ukraynanın xalq artisti Qurban Abbasovun şən və həzin mahnıları ilə sona çatıb.

**Qədir ASLAN,**
**"Respublika".**

mövqeyə düşənlərə əyani olaraq sübut etmək, onları ölkəmizə, millətimizə qarşı edilən ədalətsizliyə inandırmaq, eyni zamanda əyani vəsaitlərdən istifadə etməklə təbliğat aparmaq, eləcə də bir daha Azərbaycanı dünyaya tanıtdırmaq missiyasını yerinə yetirməyə çalışırlar.

Ulu öndər Heydər Əliyevin Azərbaycanın ağır şəraitdə olduğu bir vaxtda vətənə qayıdışı ölkədə sanki bir hərəkət, bir dönüş yaratdı. Ölü bir ölkəyə çevrilməkdə olan Vətənimiz Heydər Əliyevin gəlişi ilə canlanmağa başladı. Müəssisə və təşkilatların fəaliyyətə başlaması, yeni iş yerlərinin yaradılması, ölkədə abadlıq işlərinin görülməsi və s. Azərbaycanın çətin böhrandan çıxması xəbərini verirdi.

Dünya azərbaycanlılarının həmrəyliyi də həlli vacib olan məsələlərdən biri kimi Heydər Əliyevin diqqətini cəlb etdi.

Dünya Azərbaycanlılarının I Qurultayındakı nitqində ümummilli liderimiz Heydər Əliyev birliyin yaranmasına böyük önəm verərək deyib: "Biz, Azərbaycanda yaşayan azərbaycanlılar öz həmvətənlərimiz haqqında daim düşünmüşük... Biz hələ müstəqilliyimizin ilk aylarında, 1991-ci il dekabr ayının 31-də Dünya Azərbaycanlılarının Həmrəylik Günü haqqında qərar qəbul etdik. Biz o günü hər il böyük bayram kimi qeyd edirik və o vaxtdan da dünyada yaşayan azərbaycanlılarla əlaqələrimiz təd-

lanmasına xidmət edən bu ideya məhz Naxçıvandan başladı. Həmin vaxt İstanbulda türkdilli xalqların konfransı keçirildi və bu konfransda dünya azərbaycanlılarının həmrəyliyinin əsası qoyuldu, qərar qəbul edildi. Konfransda qəbul edilən qərardan iki il sonra, yəni 1991-ci ilin 16 dekabr tarixində Naxçıvanda Ali Məclisin sədri ulu öndər Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın vacibliyini nəzərə alaraq, 31 dekabr tarixini Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi.

O vaxtdan bu gün ən şərəfli, ən əziz günlərdən biri kimi rəsmi bayramlarımızın siyahısına əlavə olundu. Bu tarix artıq Azərbaycan millətinin vəhdətlilik simvoluna çevrilibdir. Dünya üzrə 50 milyondan artıq azərbaycanlı müxtəlif ölkələrdə yaşasalar da, bir-birləri ilə əlaqə yarada, lazım olduqda bir yerə toplaşa bilirlər. Bu, Azərbaycanın ən gərəkli uğurlarındandır.

Mənbələrdə qeyd olunur ki,YUNESKO-nun məlumatına görə, dünyada 40 milyondan artıq azərbaycanlı yaşayır. Bunun 29 milyonu Cənubi Azərbaycanda, 3 milyonu Türkiyədə, 2 milyondan artıq Rusiyada, 1,5 milyondan çox Amerikada, 500.000 Ukraynada, 300.000 Almaniyada, 180.000 Fransada, 175.000 Kanadada, 350.000 Hindistan və Pakistanda, 700.000 İraqda, 430.000 Əfqanıstandadır. Bu azərbaycanlılar ayrı-ayrı ölkələrdə yaşamalarına

yolda daha böyük işlər görməyi tapşırır. Dövlət başçısının — "Mən əminəm ki, Azərbaycan tez, ya gec ərazi bütövlüyünü bərpa edəcək, qaçqın və köçkünlərimiz yenidən öz dədə-baba yurdlarına dönəcəklər. Çünki artıq bütün dünya bilir ki, Ermənistan adlı ölkə olmayıb, Ermənistan adlanan yer bizim tarixi ərazilərimizdir. Mən üzümü bütün dünyada yaşayan soydaşlarımıza tutub deyirəm ki, bu gün dünyada bir müstəqil Azərbaycan dövləti vardır və onlar bu müstəqil ölkənin vətəndaşları olmaqları ilə fəxr edə bilərlər. Azərbaycanın qapıları həmişə övladlarının üzünə açıqdır",—deməsi nəinki qurultay iştirakçısı olan azərbaycanlıların, habelə, bütün dünya azərbaycanlılarının ürəyindən xəbər verdi.

Prezident İlham Əliyevin 8 fevral 2006-cı il tarixdə imzaladığı sərəncam əsasında Bakıda 2006-cı ilin 16 mart tarixində Dünya Azərbaycanlılarının II Qurultayı keçirildi. Qurultayda keçən 5 il ərzində görülən işlərin hesabatı dinlənildi. Daha sonra Azərbaycan diasporunun bugünkü fəaliyyəti, təşkilatın xarici ölkələrin diaspor təşkilatları ilə əlaqələrinin möhkəmləndirilməsinə dair məsələləri müzakirə edildi.

"Dünya Azərbaycanlılarının Həmrəylik Günü" elan olunandan bugünə qədər bu təşkilatın sıraları böyüməkdə, fəaliyyət dairəsi genişlənməkdə və inkişaf etməkdədir. Azərbaycan

*Azad Rəhimov:*

# 2015-ci il gənclər və idman sahəsində ölkəmiz üçün uğurlu il olub

Yola saldığımız il gənclər və idman sahəsində ölkəmiz üçün uğurlu il olub.

AZƏRTAC xəbər verir ki, bu sözləri dekabrın 25-də 2015-ci ilin idman yekunları ilə bağlı təşkil tərkibli nümayəndə heyəti ilə təmsil olunacağını diqqətə çatdıran nazir atletlərimizin Olimpiya Oyunlarına hazırlığı üçün lazımi şəraitin yaradıldığını diqqətə çatdırıb.

# Süni qiymət artımı və məqsədli mal qıtlığının qarşısının alınması üçün Tədbirlər Planı hazırlanır

**Manatın kursunda baş vermiş dəyişiklikdən sonra süni qiymət artımı, məqsədli mal qıtlığı yaradılması və digər sui-istifadə**